**"SINAM" Məhdud Məsuliyyətli**
**Cəmiyyətin direktoru cənab**
**Əbülfət Rəhmanova**

AMEA Mikrobiologiya institutu

"SERP" proqram təminatına dair

RƏY MƏKTUBU

AMEA Mikrobiologiya institutu Azərbaycan Respublikası Maliyyə Nazirliyinin layihəsi olan SERP (müəssisə resurslarının idarə edilməsi) sistemi bizim təşkilatda bir ildən artıqdır uğurla tətbiq edilməyə başlanılmışdır. Sistem tətbiq olunandan təşkilatımızın bütün kadr və maliyyə - mühasibatlıq işinin təşkili və idarə edilməsi avtomatlaşmış bazada qurularaq tam elektron formaya keçirilmişdir.

Bu sistem vasitəsilə şəxsi kartlar, əmək haqqı, pul vəsaitləri, xidmət sənədləri, baş kitab, əsas vəsaitlərin və mal-material uçotunun dəqiq aparılması, onlar haqqında hər hansı məlumatın tez bir vaxtda əldə edilməsi mümkündür.

Fəaliyyət çərçivəsində əməliyyat sənədləri üzrə informasiyaların sistemə daxil edilməsi ilə müxtəlif lazımi hesabat formalarının əldə edilməsinin mümkünlüyü Kadr və Mühasibat uçotu işinin təşkili və idarə edilməsini operativləşdirmiş, vaxt itkisinin qarşısını kifayət qədər almış, uçotun tam dəqiqliklə aparılmasını təmin etmişdir.

Sistem Azərbaycan Respublikasının Əmək və Vergi Məcəlləsinə, Milli Hesablar Planına uyğun qurulmuşdur. Hesablar planında və qanunvericilikdəki dəyişikliklərin və ya yeniliklərin tez bir zamanda SİNAM şirkətinin əməkdaşları tərəfindən SERP sistemində operativ şəkildə əks etdirilməsi də sistemin üstün cəhətlərindən biri olaraq qiymətləndirilir.

Bu işin təşkilinə görə SİNAM şirkətinin kollektivinə minnətdarlığımızı bildiririk və sistemdən istifadə edən təşkilat olaraq sizinlə işbirliyimizin uzunmüddətli olmasını arzu edirik.

**Baş mühasib :** **QULİYEVA Y.B**